
**Horizon Multidisciplinary Scientific Journal**
Journal homepage: https://horizonmsj.com/
ISSN 3135-4890
E-ISSN 3135-4904




Original Research Paper

# KİÇİKYAŞLI UŞAQLARDA NİTQ QÜSURLARININ PEDAQOJİ VƏ PSİXOLOJİ CƏHƏTDƏN ÖYRƏNİLMƏSİ YOLLARI

**Hüseynli Ayxan Yunis**

https://orcid.org/000-0002-3040-7333

Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan

Article history
Received: 04.11.2026
Revised: 12.11.2026
Accepted: 19.11.2026

*Corresponding Author: Ayxan Hüseynli, Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
Email: ayxanhuseynli@ndu.edu.az

**Xülasə**

Məqalə məktəbəqədər və kiçik məktəbyaşlı uşaqlarda nitq qüsurlarının pedaqoji və psixoloji cəhətdən öyrənilməsi yolları problemindən bəhs edir. Məqalədə məktəbəqədəryaşlı dizartriyalı uşaqlarda nitq qüsurlarının pedaqoji və psixoloji cəhətdən öyrənilməsinin yolları da göstərilir. Bu zaman həm loqopedin, həm tərbiyəçi-müəllimin, həm psixoloqun, həm də valideynlərin bu sahədəki vəzifələri şərh olunur. Məqalədə həmçinin afaziyalar, o cümlədən dinamik afaziya, efferent afaziya, affarent semmantik və sensor afaziyaların mahiyyəti aydınlaşdırılır və korreksiyası üzrə işin sistemi göstərilir.
**Açar sözlər:** *inkluziv təhsil, korreksiya işləri, məktəbəqədər tərbiyə, qüsurlu uşaqlar, dizartriyalı uşaqlar, nitq qüsurları, psixoloji yanaşmalar*

## GİRİŞ

Kiçik məktəb yaş dövründə uşaqlarda özünü göstərən nitq qüsurlarının həm pedaqoji cəhətdən öyrənilməsi, həm də psixoloji cəhətdən aydınlaşdırılaraq müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu dövrdə, yəni 3-4, 5-6 yaş dövründə müxtəlif səbəblərdən (anadangəlmə travmalar, sonradan qazanılan travmalar və bu kimi səbəblər nəzərdə tutulur. – A.H.) uşaqlarda kəkələmələr yaxud tıntınlıq əlamətləri özünü büruzə verir. Bəzən hiss olunmayan, bəzən isə daha kəskin şəkildə hiss olunan dizartriya əlamətləri ilkin olaraq, ailə mühitində aşkara çıxır. Lakin, bəzi valideynlərin səhlənkarlığı, bəzilərinin biganəliyi, bəzilərinin isə övladlarına qeyri-səmimi münasibətinin olması səbəbindən belə uşaqlarla vaxtında korreksiya işləri aparılmır. Başqa sözlə desək, ailə mühitində ciddi nitq qüsurları olan uşaqların nitq qüsurlarını pedaqoji və psixoloji cəhətdən öyrənilməsinə biganə qalan valideynlər unudurlar ki, məktəbəqədər yaş dövründəki nitq qüsurları vaxtında korreksiya olunmadığı hallarda məktəbəhazırlıq illərində və ya məktəb illərində belə qüsurların aradan qaldırılması çətinləşir. Çünki, ildən-ilə özünü göstərən ağırlaşmalar islah olunmaz hala gətirib çıxarır. Buna görə də, məktəbəqədər yaş dövründə özünü göstərən dizartriya hallarının korreksiyasını məqsədyönlü şəkildə həyata keçirilməsi, onların məktəb dövrü üçün əhəmiyyət rol oynayır. Belə ki,

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (8): page 123-129
**DOI: https://doi.org/10.5281/zenodo.24395618**

dizartriya hallarının baş verdiyi vaxtdan başlayaraq, həmin halların pedaqoji və psixoloji cəhətdən düzgün öyrənilməsi lazım gəlir. Məktəbəqədər yaşlı uşaqlarda özünü göstərən dizartriya hallarının məqsədyönlü, planlı, mütəşəkkil olaraq həyata keçirilməsi işinin pedaqoji cəhətdən öyrənilməsi dedikdə, valideynlərin loqopedlərlə və pedaqoji işçilərlə birgə fəaliyyətləri nəticəsində hazırlanan iş modeli üzrə fəaliyyət istiqamətləri nəzərdə tutulur. Həmin fəaliyyətə aşağıdakılar daxildir:

- Ailədə 4-5 və ya 5-6 yaşlarından etibarən dizartriyalı uşaqların müəyyənləşdirilməsi və loqopedə müraciət edilməsi;
- Valideynlərin loqopedlərlə iş birliyi nəticəsində dizartriyanın səviyyəsinin müəyyənləşdirilməsi;
- Valideynlər tərəfindən loqopedlərlə yanaşı, pedaqoji işçilərin köməyindən istifadə edilməsinin planlaşdırılması;
- Pedaqoji işçilərin göstərilənlərdən birinin məqsədəuyğun hesab edilməsi: Azərbaycan dili və ədəbiyyat müəllimi, dilçilik üzrə mütəxəssis, qüsurlu uşaqlarla işləyən metodist, nitqi qüsurlu uşaqlarla bağlı korreksiya pedaqogikası sahəsində tədqiqat aparan mütəxəssis.

Qeyd olunanları məktəbəqədər yaşlı uşaqlarda nitq qüsurlarının pedaqoji cəhətdən öyrənilməsinin nümunəvi iş modeli də adlandırmaq olar. Hansı ki, bu modelə, ilk növbədə, uşaqlarla həyata keçirilən didaktik işlərin planlaşdırılması əsas cəhət hesab olunur. Həmin didaktik işlərə qruplaşdırmalar üzrə işlərin daxil edilməsi daha məqsədəuyğundur. Qruplaşdırmalar üzrə işlər deyəndə müəyyən edilən nitq qüsurlarının qruplaşdırılması nəzərdə tutulur. Birinci qrupa elə qüsurlar aid edilir ki, onlar yalnız fonetik tərəfdən özünü göstərən qüsurlar kimi qeydə alınır. Bu cür qüsurlar müxtəlif səbəblərdən yaranır. Ən başlıca səbəb artikulyasiya aparatında bəzən kobud, bəzən də kobud olmayan quruluş qüsurları özünü daha çox büruzə verir. İkinci səbəb isə, düzgün olmayan nitq mühitinin təsirindən yaranan səbəblər kimi qeydə alınır. Hər iki səbəbdən uşaqlarda müəyyən səslərin tələffüzü təhrif edilmiş şəkildə formalaşmağa başlayır. Qarşısı alınmadıqda artikulyasiya aparatında mövcud olan belə quruluş qüsurlarının və eləcə də, düzgün olmayan nitq mühitinin təsirindən yaranan nöqsanlı tələffüz epizodları daimilik halı alır və həmin uşağı bütün ömrü boyu müşayiət edir (5, s. 223)

Müşahidələr göstərir ki, ailə mühitində kiçik yaşlardan uşaqlara təhrif edilmiş sözlərin öyrədilməsi də, dizartriya ünsürlərinə çevrilə bilir. Bəzi valideynlər uşaqlarını əzizləmək, nazlamaq məqsədilə, guya sözləri şirinləşdirərək uşaqlarına öyrədirlər. Belə öyrətmə prosesini nöqsanlı təmrinlər kimi qəbul etmək olar. Belə nöqsanlı təmrinlərdən qazanılanlar sonradan uşaqlarda vərdiş halına keçir və həmin təhriflər üslubunda danışmağı davam etdirirlər. Belə hallar da dizartriya əlamətlərinin ciddi şəkildə özünü göstərməsinə səbəb olur. Bu qüsurlar, birinci qrup qüsurlar kimi qeyd olunur.

İkinci qrupa elə nitq qüsurları aid edilir ki, onlar nəinki nitqin fonetik tərəfini, həmçinin bütövlükdə fonematik tərəfini də əhatə edir. Fonematik tərəf, uşaqlarda səsin akustik imkanlarının və artikulyasiya vərdişlərinin pozulması kimi başa düşülür. Fonematik qüsurların baş verməsi nəticəsində, bir səs davamlı olaraq digərləri ilə əvəz olunur. Məsələn, Ş, J, B, D, Q səsləri şifahi nitq prosesində bir çox hallarda S, Z, P, L, X səsləri ilə əvəz olunur. Bu zaman, bu qrup aid uşaqların nitqində səslərin əvəzlənməsi zamanı söz və ifadələrin tələffüzündə ciddi qüsurlar özünü qabarıq şəkildə göstərir. İkinci qrup uşaqların şifahi nitqində ən çox xışıltılı, fitli, cingiltili və kar samitlərin tələfüzündə ciddi qüsurlar müşahidə edilir. Məhz, bu qrupa aid olan nitq qüsurları öz mürəkkəb quruluşuna məxsus qüsurları ilə birinci qrupa aid olan nitq qüsurlarından ciddi sürətdə fərqlənir. Ona görə ki, bu qrupdakı uşaqlarda daha çox səsin akustik-artikulyasiya tərəfləri pozuntuya məruz qalır.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**DOI: https://doi.org/10.5281/zenodo.24395618**

Bu səbəbdən, belə uşaqlarla valideynlərin, müəllimlər və loqopedlərlə birlikdə işləmələrinə zərurət yaranır. Prosesə uyğun olaraq, loqoped ilə müəllim mütləq tələffüzün korreksiyası ilə yanaşı, səsin təhlil və tərkib proseslərinin inkişafına da xüsusi diqqət yetirməlidirlər.

Valideyn, loqoped, müəllim üçlüyünün birinci qrup qüsurlar üzərində məqsədyönlü işlər aparması nəticəsində, ikinci qrup qüsurların yaranmamasına köməklik göstərmiş olur. Belə təsirlər olmadıqda, ikinci qrup qüsurlar özlərini daha ciddi şəkildə büruzə verir. İkinci qrup qüsurların aradan qaldırılması yollarının düzgün müəyyənləşdirilməməsi, pedaqoji cəhətdən öyrənilməməsi və bu qüsurlar üzərində məqsədyönlü işin aparılmaması üçüncü qrup qüsurlarında ortaya çıxmasına şərait yaradır.

Üçüncü qrupa elə qüsurlar aid edilir ki, bu qüsurlar artıq ümumi nitq geriliyi qüsurları kimi öz əksini tapır. Bu qrup nitq qüsurları, nitqin bu və ya digər komponentlərin xarakterik qüsurları olaraq qiymətləndirilir. Həmin qrupa aid qüsurların sırasına fonetik qüsurlar, fonematik qüsurlar və çoxsaylı qrammatik qüsurlar vəhdət təşkil edir. Bu zaman dizartriyalı uşaqlarda fonetik, fonematik, lüğət ehtiyatları və qrammatik quruluş qüsurları cəmləşmiş olur. Belə şəraitdə valideyn, loqoped, müəllim üçlüyünə psixoloqunda daxil edilməsi faydalı hesab olunur. Prosesə psixoloji yanaşma həm loqopedin, həm müəllimin işinə öz dinamik təsirini göstərir. Artıq dördtərəfli təsir imkanları genişlənir, pedaqoji-psixoloji yanaşmaların vəhdətindən nitq fəaliyyətinin mexanizmi və bir sıra funksiyaları üzərində birgə iş aparmaq üçün şərait formalaşır.

B.M.Qext göstərir ki, beyinin göstərilən sahələri yalnız nitq fəaliyyəti ilə əlaqədar olan beynin müxtəlif sahələrinin çox saylı əlaqələrinin yerləridir və elə buna görə də, onların zədələnməsi kobud nitq qüsurlarına gətirib çıxarır (1)

Matariallar və metodologiya

Müasir psixologiya elmində nitq fəaliyyəti uşaqlarda ünsiyyət üçün dildən istifadə edilməsi prosesi hesab edilir. Əslində, psixologiya elmi nitqin öyrənilməsinə, o cümlədən müxtəlif şəraitdə, müxtəlif problemli situasiyalarda dildən istifadə olunmasının spesifik xüsusiyyətlərinin insan fəaliyyətində dilin rolunu, uşaqlarda ünsiyyət prosesinin təşəkkülü yollarını və əsas istiqamətlərini aydınlaşdırmaq uzun illər boyu araşdırılmışdır.

Görkəmli Amerika fizioloqu Y.A.Vuntd hələ ötən əsrin əvvəllərində "Fizioloji psixologiya" əsərində əvvəlcə sübut etməyə çalışmışdır ki, korreksiya işlərini fizioloji yanaşmalardan başlamaq lazımdır. Uzun illər apardığı eksperimentlərdən sonra belə qənaətə gəlmişdir ki, fizioloji qüsurları, o cümlədən nitq qüsurlarını psixoloji cəhətdən dərindən öyrənmədən, həmin qüsurlara fizioloji cəhətdən yanaşılması heç bir fayda vermir. Ona görə də, sonradan "Psixoloji fiziologiya" adlı əsərində korreksiya işlərinə başlamazdan əvvəl fizioloji qüsurların psixoloji cəhətdən dərindən öyrənilməsi qənaətinə gəlmiş və bu sahədə ciddi eksperimentlər aparmışdır. Onun apardığı eksperimentlərin nəticələrinə görə, fizoloji qüsurların hər birinin, o cümlədən nitq qüsurlarının ilkin olaraq psixoloji cəhətdən öyrənilməsi və bu qüsurların aradan qaldırılmasına psixoloji cəhətdən düzgün yanaşılması vacibdir.

Görkəmli fizioloq-psixoloq İ.P.Pavlov hələ ötən əsrin əvvəllərində nitqin yaranmasının və qavranılmasının "Siqnallar-sinqalı"na əsaslanmasını iddia etmişdir. Göstərmişdir ki, bu proses baş beynin böyük yarımkürələr formasında həyata keçirilir. İ.P.Pavlova görə, baş beyində yaranan anomaliyalar ciddi nitq qüsurlarının yaranmasına səbəb olur. Onunla bir əsrdə yaşamış və bu sahədə ciddi tədqiqatlar aparan P.Broka müəyyənləşdirmişdir ki, baş beynin müəyyən sahəsinin zədələnməsi zamanı uşaqlarda, xüsusilə məktəbəqədər yaşlı uşaqlarda nitq artikulyasiyasının pozulması baş verir. P.Broka baş beyin nayihəsində, o cümlədən sol yarımkürələrinin alın qırışlarının üçdə birində

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**DOI: https://doi.org/10.5281/zenodo.24395618**

zədələnmələr baş verdikdə, nitq qüsurları özünü göstərir. P.Brokaya görə, beynin müəyyən sahəsinin anomaliyaları uşaqların sözləri ifadə etmələri üçün motor sürətli mərkəzdir. Hansı ki, nitqin sürəti burada lokallaşır. Sonralar nitq qüsurları ilə bağlı tədqiqat aparan psixoloqlar da ali sinir sistemində, yəni baş beyində əmələ gələn anomaliyaların ciddi nitq qüsurlarının yaranmasına səbəb olmasını təsdiqləmişlər.

Görkəmli rus psixoloqu A.R.Luriya nitq qüsurlarının bütün növlərini müəyyənləşdirərək, onları afaziya kimi ifadə etmişdir. Hazırda nitq qüsurlarının dinamik afaziya, efferent afaziya, afferent afaziya, semantik afaziya və sensor afaziya kimi növləri üzrə nitq qüsurlarının müəyyənləşdirilməsi və onların aradan qaldırılması yolları ilə bağlı tədqiqatlar aparılır.

Dinamik afaziya sözlərin təkrarında, isimləri adlandırmaqda, nitqi başa düşməkdə məktəbəqədər yaşlı uşaqlar çətinlik çəkməsələr də, onlarda cümlələrlə danışmaq qabiliyyətinin pozulması özünü daha qabarıq şəkildə göstərir. Dinamik afaziyanın iki formasını qeyd etmək olar: bunların birində fikirlərin proqramlaşdırılmasının pozulması, digərində isə onun qrammatik-sintaktik təşkili mexanizminin pozulması müşahidə olunur. Bunun üçün müəllim loqoped ilə birlikdə sözlərin təkrarı ilə bağlı təmrinlər hazırlayır. Həmin təmrinlərin təşkili ilə bağlı olan məşğələni, onlar birlikdə həyata keçirirlər. Sonra isə valideynlərə təmrinlərin modeli üzərində işləməyi tapşırırlar. Bu zaman təmrinlərin həcmi, miqdarı vaxt imkanları ilə bağlı valideynlərə tapşırıqlarını verirlər. Valideynlərin uşaqlarla işləməsi prosesində psixoloqun tövsiyələrinə ehtiyac duyulur. Əslində, belə təmrinləri psixoloqlar valideynlərin iştirakı ilə həyata keçirməklə onları maarifləndirmiş olurlar.

Efferent afaziya nitqdə ayrı-ayrı sözləri saxlamaqla ifadənin qrammatik quruluşunun pozulmasıdır. Məktəbəqədər yaşlı uşaqlar ayrı-ayrı səsləri tələffüz edə bildikləri halda, onları müəyyən ardıcıllıqla birləşdirə bilmirlər. Beləliklə, burada nitqin ardıcıllığı pozulur. Bunun üçün müəllim ilə loqoped ifadələrin qrammatik quruluşunun pozulmasını aradan qaldırmağa xidmət edən təmrinlər hazırlayırlar. Hansı ki, bu təmrinlər ayrı-ayrı sözləri tələffüz edə-edə, onların müəyyən ardıcıllıqla birləşdirilməsini özündə ehtiva edir. Belə təmrinlərin ilk məşğələsini loqopedlə müəllim həyata keçirdiyi halda, sonrakı məşğələləri valideynlər psixoloqla birlikdə həyata keçirdikdə korreksiya işləri uğurla nəticələnmiş olur. Səriştəli valideynlər, loqopedin, psixoloqun və müəllimin göstərişlərinə əməl etməklə özləri üçün məşğələ saatları müəyyənləşdirirlər. Hansı ki, belə məşğələ saatlarında dizartriyalı uşaqların nitq qüsurlarının aradan qaldırılması işi dinamik sürət almış olur.

Afferent afaziya nitq tələffüzünün aydınlıq dərəcəsinin pozulmasından ibarətdir. Məktəbəqədər yaşlı uşaq ona aid lazım olan müvafiq səsi tapa bilmir və daim yaxın tələffüzə, səsə istinad edir. Bu zaman, səsləri seçmə məqamı pozulur. Uşaq tərəfindən ona lazım olan səsləri tələffüz edə bilmədiyi zaman, səslərin seçilməsi çətinləşir. Məhz, loqopedlə müəllim hazırladıqları təmrinlərin ilk məşğələsində məktəbəqədər yaşlı uşağın ona aid lazım olan müvafiq səsi tapmaq üçün onlara verilən tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. İlk məşğələdə təmrinlər vasitəsilə uşağın tələffüzün aydınlıq dərəcəsi pozulmalardan xilas edilir və danışıq zamanı səsi tapa bilməyəndə uşaq təmrində göstərildiyi kimi yaxın səsə istinad etməyi tərgidir. İlkin məşğələdən sonra valideynlə psixoloqun səyi nəticəsində həyata keçirilən təxminən 10 təmrindən sonra afferent afaziya müşahidə olunmur.

Semantik afaziya sözləri tapmaqdakı çətinliklərlə, sözlər arasındakı məntiqi əlaqələrin pozulmasında özünü göstərir. Məsələn, məktəbəqədər yaşlı uşaq "ata" və "qardaş" sözlərini anladığı halda, "atamın qardaşı" ifadəsinin nədən ibarət olduğunu anlaya bilmir. Əslində, semantik afaziyanın əmələ gəlməsinin əsas səbəblərindən biri uşağın ali sinir sistemindəki anomaliyalar hesab olunur. Məlum olduğu kimi, beş duyğunun hamısı ali sinir sisteminə xidmət edir və ətraf mühitdə, yaxud

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**DOI: https://doi.org/10.5281/zenodo.24395618**

uşağın hər hansı fəaliyyəti prosesində gördüyünü duyur, qavrayır, hafizədə saxlayır, təxəyyül və təfəkkür süzgəcindən keçirdikdən sonra nitq vasitsəilə ifadə edir. Lakin, afaziya səbəbindən uşağın təfəkkür tərzində ləngimələr, onun nitqini pozur. Beləliklə, ən azı bir fikri ifadə etmək istəyən dizartriyalı uşaq sözləri tapmaqda çətinlik çəkdiyi üçün onların arasında əlaqə də yarada bilmir və ciddi kəkələmələr ortaya çıxır. Bu görə ilk növbədə, loqopedlə müəllim hazırladıqları təmrinlərin ilk məşğələsini özləri birlikdə həyata keçirməli olurlar. İlk təmrin tapşırıqlarına uyğun olaraq, sözləri tapmaqda çətinlik çəkən dizartriyalı uşaqlar sözlər arasındakı məntiqi əlaqəni yaratmağa cəhd edirlər. İlk məşğələdə, bu işə bütövlükdə nail olmasalar da, sözlər arasında məntiqi əlaqəni qurmağa zəmin formalaşır. Sonrakı məşğələlərdə təmrinlərin üzərində çalışan psixoloqla valideynin birgə səyi nəticəsində semantik afaziya aradan qaldırılmış olur.

Sensor afaziya hər şeydən əvvəl, nitqin qavranılması zamanı birinci növbədə fonematik eşitmənin pozulmasında, sözün səs tərkibinin və mənası arasındakı qarşılıqlı əlaqənin pozulmasında öz əksini tapır. Afaziya zamanı sözlərin səs tərkibi pozulur. İlk məşğələ zamanı, loqopedlə müəllimin birinci təmrin üzərində işləməsi lazım gəlir. Hansı ki, belə təmrinlərin yerinə yetirilməsi sözlərin səs tərkibinin pozulması hallarını aradan qaldırır.

Göründüyü kimi, afaziya hallarının aradan qaldırılması işində loqoped, müəllim, psixoloq və valideyn dördlüyü nitq qüsurlarının məqsədyönlü, planlı, mütəşəkkil olaraq aradan qaldırılmasını təmin etmiş olur.

**Nəticələr**

Loqopedin həm pedaqoqlarla, həm psixoloqla işinin düzgün qurulması korreksiya işşinin sürətlənməsini təmin edir. Niyə? Birincisi ona görə ki, loqoped əsas fizioloji köməkliyi göstərir. Lakin fonetik, morfoloji və sintaktik təmrinlərin həyata keçirilməsində mütəxəssislə, yəni pedaqoji işçilərlə işləməsinə zəruri ehtiyac duyulur. Dizartriyalı uşaqlarla loqopedin pedaqoqla birgə işi psixoloji yanaşmalarla davam etdirildikdə səmərəsi çox olur. Çünki duyma, qavrama, hafizədə saxlama, təxəyyül və təfəkkür süzgəcindən keçirmə kimi prosesləri tənzimləyən təmrinlərin psixoloqla birgə aparılması zərurətini yaradır. Deməli, dizartriyalı uşaqlarla aparılan korreksiya işlərinin başlanğıcı loqoped tərəfindən qoyulur. Unutmaq olmaz ki, loqopediyanın xüsusi vəzifəsi korreksiya edilən uşağın afaziyalarının və digər xüsusiyyətlərinin dərindən öyrənilməsini tələb edir. Bunun üçün loqopedlər nitq qüsurlarının loqopedik-pedaqoji, loqopedik-psixoloji təsir imkanlarını sistematik olaraq öyrənməlidirlər. Başqa sözlə desək, nitq qüsurlarının loqopedik-pedaqoji və loqopedik-psixoloji təsir sisteminin yaradılması dizartriyalı uşaqların korreksiya işini sürətləndirir. Həmin sistemə aşağıdakılar daxildir:

1. Loqopedin işinin ilkin mərhələsi loqopatın şəxsiyyətinin ətraflı müəyyənləşdirilməsi təşkil edir. Loqopatın şəxsiyyətinin, xarakterik xüsusiyyətlərinin ətraflı öyrənilməsi ona pedaqoji, psixoloji və fizioloji cəhətdən yanaşılmasına düzgün istiqamət vermək baxımından mühüm əhəmiyyət kəsb edir.

2. Loqopedik işə dizartriyalı uşaqların nitq qüsurlarının bütün komponentləri cəlb edilməlidir.

3. Nitq inkişafı mərhələlərindən asılı olaraq loqoped özünün metodiki məqsədlərini dəyişməlidir.

4. Loqopedik işin düzgün təşkili prosesində nitqin və ümumi psixi inkişafının qanunauyğunluqları, normal ardıcıllıqla nəzərə alınmalıdır.

5. Loqopedik işin düzgün təşkili, tətbiq edilən formaların istifadə olunan materialların loqopatın yaş xüsusiyyətlərinə uyğun olması vacibdir.

6. Loqopedik işin təşkili zamanı, loqopatın fərdi xüsusiyyətlərinin nəzərə alınması mütləqdir.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**DOI: https://doi.org/10.5281/zenodo.24395618**

7. Loqopedik işin təşkili zamanı, dizartriyalı uşaqların cinsi xüsusiyyətlərinin nəzərə alınması da vacib şərtlərdən sayılır.

8. Loqopedik işin müddəti və çətinlikləri hər bir nitq qüsurundan onun xarakter və dərəcəsindən asılıdır. Məsələn, dizartriyada səs tələffüzünün tədricən inkişafı, həmin dilin artikulyasiya sisteminin mürəkkəbliyi ilə müəyyənləşir. Qeyd olunanlara əsasən, artikulyasiya bacarıqları aşılayan təmrinlərdə aşağıdakıların nəzərə alınması faydalıdır:

a) Səs təqlidindən və hecalı sözlərdən daha mürəkkəb söz strukturuna keçid;

b) qrammatik kateqoriya və məna tərkibinə görə konkret sözlərdən daha çox geniş və mürəkkəb cümlələrə keçid;

c) sadə cümlələrdən daha geniş və mürəkkəb cümlələrə keçid.

9. Loqopedin apardığı işlərin psixoterapiya səciyyəsi daşıması faydalıdır.

10. Nitqin tərbiyə və yenidən tərbiyəsi loqopedin məqsədyönlü fəaliyyəti ilə həyata keçirilməlidir.

Tədqiqatlar göstərir ki, korreksiya işinin daha səmərəli təşkili üçün həm tibbi, həm də psixoloji-pedaqoji cəhətdən nitq qüsurlarına yanaşmaq lazımdır.

Dislaliyalı uşaqların tibbi, psixoloji və pedaqoji tərəfdən öyrənilməsi bu cür məktəbəqədər yaşlı uşaqlarda düzgün korreksiya işini təşkil etməyə imkan verir. Belə ki, tibbi nöqteyi nəzərdən dislaliya uşağın nitq aparatının periferik hissəsindəki quruluş (dodaq, diş, burun, damaq və digər üzvlər) qüsurları nəticəsində baş verir. Bu uşaqlara, tibbi təsirlər (qüsurlu dişlərin çəkilməsi, damağa xüsusi şina qoymaqla, diş düzümünün və damağın irəli çıxmasının qarşısını almaq, dilin alt pərdəsini kəsmək və s.) müdaxilələr nəticəsində danışıq üzvlərinə maneə olanları aradan götürmək, bəzilərini isə cərrahiyyə əməliyyatı aparmaqla normaya salmaq olar.

Məqalənin elmi yeniliyi. Məqalədə kiçikyaşlı dizartriyalı uşaqların nitq qüsurlarının afaziyaları ilə bağlı elmi ideyalar irəli sürülür. Bu afaziyaların korreksiyası ilə bağlı həyata keçirilən işlərin modernləşdirilməsi sahəsində irəli sürülən müddəalar, tövsiyə və məsləhətlər məqalənin elmi yeniliyi hesab olunur.

Məqalənin praktik əhəmiyyəti. Məqalədə kiçikyaşlı uşaqların nitq qüsurlarının afaziyası və onların korreksiyası ilə bağlı elmi, nəzəri və praktik göstərişlər yer alır. Həmin elmi nəzəri praktik göstərişlərdən valideynlər, tərbiyəçilər, tədqiqatçılar, loqopedlər və bu sahədə çalışan digər mütəxəssislər istifadə edə bilərlər.

Nəticə etibarilə, kiçikyaşlı uşaqlarda nitq qüsurlarının pedaqoji və psixoloji cəhətdən öyrənilməsi bu sahədə aparılan korreksiya işlərinin dinamik inkişafını artırmış olur.

## İstifadə olunan ədəbiyyat

1. Dostuzadə D.Ə. Korreksion pedaqogikanın müasir məsələləri / D.Ə.Dostuzadə - Bakı: Mütərcim, - 2012. - 316 s.
2. Dostuzadə D.Ə. Dizartriya. Dərslik. /D.Ə.Dostuzadə, F.B.Sadıqov – Bakı: ADPU, - 2017. – 206 s.
3. Əlizadə H.Ə. Tərbiyənin demokratik problemləri / H.Ə.Əlizadə - Bakı: Maarif, - 1993. - 232 s.
4. Sadıqov F.B. Korreksiya pedaqogikasına giriş / F.B.Sadıqov - Bakı: ADPU, - 2017. – 199 s.
5. Sadıqov F.B. Korreksiya pedaqogikası / F.B.Sadıqov - Bakı: Maarif, - 2018. – 300 s.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (8): page 123-129
**DOI: https://doi.org/10.5281/zenodo.24395618**

# Pedagogical and psychological study of speech disabilities of pre-school and primary school children

**Huseynli Aykhan Yunis**
Nakhchivan State University,
Doctoral Student in the Program of the Doctor of Philosophy,
Teacher
https://orcid.org/0000-0002-3040-7333
E-mail: ayxanhuseynli@ndu.edu.az

**Summary**

The article states the problems of pedagogical and psychological ways to study of speech defects in preschool and primary school children. The article also shows the ways of pedagogical and psychological study of speech disabilities in preschool children with dysarthria. In this case, the duties of the speech therapist, teacher, psychologist, and parents are explained. The article also reveals the essence of aphasia, including dynamic aphasia, afferent motor aphasia, afferent semantic and sensory aphasia, as well as demonstrates the system of remedial works.

**Key words:** *inclusive education, correctional work, preschool education, children with disabilities, children with dysarthria, speech disabilities, psychological approaches, pedagogical effects, symptoms of aphasia, correction of aphasia*

# Педагогическое и психологическое исследование речевых дефектов у детей дошкольного и младшего школьного возраста

**Гусейнли Айхан Юнис**

**Нахичеванский государственный университет,**

**докторант (программа доктора философии),**

**преподаватель**

https://orcid.org/0000-0002-3040-7333
E-mail: ayxanhuseynli@ndu.edu.az

**Резюме**

В статье говорится о проблеме педагогических и психологических исследований речевых дефектов у детей дошкольного и младшего школьного возраста. В статье также продемонстрированы пути педагогического и психологического исследований речевых дефектов у детей дошкольного возраста с дизартрией. В этом случае объясняются обязанности логопеда, педагога, психолога, а также родителей. В статье также раскрывается сущность афазий, в том числе динамической афазии, афферентной афазии, афферентной семантической и сенсорной афазий, а также продемонстрирована система коррекционых работ.

**Ключевые слова:** *инклюзивное образование, коррекционная работа, дошкольное воспитание, дети с дефектами, дети с дизартрией, речевые дефекты, психологические подходы, педагогические эффекты, симптомы афазии, коррекция афазии*

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license